# Milli dəyanətin sınandığı gecə

**30 il bundan əvvəl - 1990-cı ilin yanvar ayının 20-də səhər mən - 11-ci sinif şagirdi yeniyetmə bir qız - kənddən rayon mərkəzindəki oxuduğum məktəbə dərsə gələndə məktəbin darvazasından qara parça asıldığını gördüm. Məktəbdə sinif rəhbərimiz Badam müəllimənin son dərəcə kədərli görüb, nə baş verdiyini soruşduqda o, hönkürdü. Bir müddət sakitləşə bilmədi. Sonra özünə gəlib, - yanvarın 19-dan 20-nə keçən gecə Bakıda dəhşətli cinayət törədildiyini, sovet qoşunlarının öz azadlığı, müstəqilliyi, torpaqlarının bütövlüyü uğrunda etiraz səsini ucaldan insanları amansızlıqla qətlə yetirdiyini söylədi. Bildirdi ki, gecə yüzlərlə dinc sakin həlak olub, ağır yaralanıb və itkin düşüb. Ayın 19 - da axşam televiziya verilişləri qəfil kəsildiyindən bölgələrdə əhalinin çox hissəsi gecə bu faciədən xəbər tutmayıb.**

Dərsdən evə qayıdanda artıq hamı bu faciədən danışır, müxtəlif radio dalğalarında verilən məlumatları, baş verən hadisəyə Azərbaycan ziyalılarının münasibətini dinləyib, Bakıya getməyə can atırdılar. 30 il keçməsinə baxmayaraq, 1990-cı ilin yanvar ayının 20-də əhalinin yaşadığı o təlatümü, həyəcanı, kədəri unuda bilmirəm.

30 il əvvəl baş vermiş və Azərbaycan xalqına qarşı törədilən bu müdhiş cinayət, xalqımızı sarsıda, inamını qıra, müstəqillik, azadlıq eşqini, yanğısını məhv edə bilmədi. Totalitar kommunist rejiminin XX əsrdə həyata keçirdiyi ən qanlı, ən qəddar terror aktlarından biri olan bu hadisə xalqımızın inamını, iradəsini qırmaq üçün törədilsə də, xalqımız daha inadla, daha coşqu ilə mübarizəyə qalxdı, öz layiq olduğuna, dövlət müstəqilliyinə nail oldu. SSRİ-nin ovaxtkı rəhbəri, əlləri Azərbaycan xalqının qanına batmış, ermənipərəst, avantürist Mixail Qorbaçovun bilavasitə rəhbərliyi ilə törədilmiş bu dəhşətli aksiya bəşəriyyətə, insanlığa, humanist dəyərlərə qarşı çevrilmiş qatı cinayət idi. 1990-cı ilin yanvar ayının 20-də azadlıq, istiqlaliyyət arzusu ilə küçələrə çıxmış əliyalın insanlara misli görünməmiş amansızlıqla divan tutuldu, xalqın iradəsini qırmaq, milli ləyaqətini alçaltmaq məqsədilə hərbi təcavüz edildi.

1920-ci ildən Sovet İmperiyasının boyunduruğunda əzab-əziyyət çəkən, zülmə məruz qalan Azərbaycan xalqı nəhayət, özündə güc, iradə tapıb mübarizə meydanına atıldı. Xalqın haqq səsini boğmaq üçün imperiya öz silahlı birləşmələrini güc nazirləri Yazov və Bakatinin rəhbərlikləri altında Bakıya yeritdi. Quduzlaşmış, tərkibində erməni millətindən əsgərlərin, zabitlərin olduğu sovet ordusu dinc, silahsız xalqı tankların, zirehli hərbi maşınların tırtılları altında əzdi, xıncım-xıncım etdi. Qəflətən işıqları söndürüb projektorların işıqları altında azadlıq aşiqlərini qadağan olunmuş güllə yağışına tutan qatillər faşistlərdən də qəddar olduqlarını sübut etdilər. Onlar qocaya, uşağa, yaralılara köməyə tələsən tibb işçilərinə, hətta səs-küyə eyvanlara çıxan insanlara da atəş açaraq onları xüsusi amansızlıqla məhv etməyə çalışırdılar.

Qanlı Yanvarda Bakıda şəhid olanlar arasında iki nəfər Göyçaylı - Mehman Muradov və Rauf İsayev də vardı. Bu gənclər Göyçayda Şəhidlər Xiyabanında uyuyurlar.

20 Yanvar faciəsinə ilk hüquqi-siyasi qiymət ümummilli liderimiz Heydər Əliyevin respublikamıza siyasi hakimiyyətə qayıdışından sonra verildi. O, 20 Yanvar faciəsinin xalqımızın taleyindəki yerini göstərərək demişdir: “Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi”.

Bu gün dünyanın inkişaf etmiş ölkələri arasında öz layiqli yerini tutan müstəqil Azərbaycan dövlətinin yaranmasında 20 Yanvarda xalqımızın göstərdiyi qəhrəmanlığın rolu danılmazdır. Xalqımız 20 Yanvarda bütün dünyaya sübut etdi ki, azadlıq yolunda qurban getməyə hazır olan milləti əsarət buxovlarında saxlamaq olmaz. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 20 Yanvarla bağlı bu fikirlərini xatırlamaq yerinə düşər: “Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq və gələcəkdə də hər il bu gün qeyd olunmalıdır. Azadlıq, müstəqillik uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü Müstəqil Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu, heç vaxt yaddan çıxmamalıdır”.

Hər il 20 Yanvarda milyonlarla insan Şəhidlər Xiyabanını, şəhidlərin əbədi uyuduqları məzarıstanları ziyarət edir, şəhid qanından rəng alan qırmızı qərənfilləri şəhid məzarları üzərinə düzür, şəhidlərin müqəddəs ruhuna hörmət əlaməti olaraq endirilmiş müstəqil ölkəmizin Dövlət Bayrağına qürur və iftixarla baxırlar.

**Könül MƏMMƏDOVA,**
**Göyçay Qeydiyyat Şöbəsinin rəisi.**

Respublika.- 2020.- 19 yanvar.- S.6.